**UOT 745/749**

***Elfanə Qasımova***
***fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***
***Günay Cavadzadə***
***müəllim***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***AZ 1001, Bakı İstiqlaliyyət küç.6***
***E-mail:* qasimova_elfana@mail.ru**

# PARİS DƏBİNİN SEHİRBAZLARI

**Xülasə:** Məqalə XX əsrdə geyim aləmində dəbin inkişaf meyillərin təhlilinə həsr olunmuşdur. Göstərilmişdir ki, Çarlz Frederik Vortun adı ilə başlayan ticarət markası dəbin inkişafina böyük təkan vermişdir. Müəyyən olunmuşdur ki, XX əsrdə dizaynerlərin dəb aləmində yaratdıqları əsl inqilaba səbəb olmuşdur. Dəb səhnəsində Paris modelyerləri Pol Puare, Coco Chanel, Marlen Ditrix, Vive Roje, MC Queenin, Karl Lagerfeld və digərlərinin yaradıcılıqlarının xüsusiyyətləri müəyyən olunmuşdur. Bu yeniliklər XX əsri dəb sənayesinin intibah dövrü adlandırmağa əsas verir.

**Açar sözlər:** dəb, geyim inkişaf yolları, Paris modelyerləri, üslubların formalaşması.

Gözəl görünmək arzusu insanlarda həmişə olmuşdur. Amma dəb keçən əsrlərin fenomenidir. Keçmişdə ölkə və ya sosial statusundan aslı olaraq geyimdə çox müxtəlif üslublar mövcud idi. Saray daxilində burjua dairələrindən fərqli geyinirdilər. Fransada İngiltərə adaları, İtalya və ya Almaniyada olduğu kimi geyinmirdilər. Şahzadə Jevgeniyanın geyim təçizatçısı olan, Çarlz Frederik Vortun yaratdığı geyimlərlə hər şey dəyişdi, o geyimə incəsənətin bir növü kimi yanaşmanın əsasını qoydu. Elə bununla da ticarət markasının yaranması dövrü başladı. Beləliklə təçizatçı-dizaynerə çevrildi, onun yaratdığı əsər isə dəb adlandı.

Dəb mütəxəssisləri hesab edir ki, XX əsrin dəbi yalnız Parislə bağlıdır. Doğrudan da XX əsrdə dəbdə baş verən bütün yeniliklər məhz Paris dizaynerlərinin adı ilə bağlıdır. [1, s. 136-137] Məsələn, bir neçə əsrlər boyu Parisdə və Avropanın bir sıra şəhərlərində korsetlər qadın geyimlərinin əvəzsiz bir aksessuarı idi. Lakin, XX əsrin əvvəllərində tanınmış Fransız dəb dizayneri Pol Puare korsetləri ləğv etdi. Korsetlərdən xilas olmaqla yanaşı Pol Puare onları həm də xeyli qısaltmışdı, nəticədə qadın geyimləri istifadədə daha rahat olurdu. Bu dəyişikliklər dərhal saçın uzunluğuna da təsir etdi. Beləliklə qısa saç düzümləri

yarandı, onlar yüngül buruqlar və dalğalarla təzahir edirdi. Düz, köynək biçimli paltar, uzun gövdəli siluet, dar ətəklər və beldən enli şalvarları dəb səhnəsində gətirən Puare böyük uğur qazandı. Qeyd etmək lazimdir ki, XX əsrin əvvəllərində qadın zərifliyi bir ideal hesab olunurdu. O zaman qadın zərifliyini və gözəlliyini vurğulayan kiçik gödəkçələr və uzun ətəklər, dəb idi. Kiçik papaq və kiçik çantalar zərifliyi daha da gücləndirirdi. 1920-ci illərdə dəb aləmində tanınmış Gabrielle Chanel qadın qarderobuna sırf kişi geyim dəsti elementlərini - pencək, şalvar, qalstuklu ciddi köynəklər daxil etməklə qadın geyimlərinin tərzini kökündən dəyişdirdi.

Elə həmin dövürdə Madlen Vonne ətəyi çəp kəsimli paltar formasını dəbə daxil etdi. 20-ci illərin sonunda bel xətti aşağı düşərək hardasa bud nahiyyəsində qərarlaşdı, uzun ətəklər artıq dəbdən düşərək, midi uzunluqla əvəz olundu. Həmin illərdə ən dəbli geyim elementi şal formalı yaxası olan həcmli palto-kimono olmuşdu. Bu paltolar hədsiz dəbli olmaqla yanaşı, isti və olduqca rahat idi.

Birinci Dünya müharibəsindən xeyli əvvəl cəmiyyət həyatının təhsil və mədəni səviyyəsi əhəmiyyətli dərəcədə artmağa başladı. Qadınlar daha fəal və cəsarətlə işlə məşğul olur, ictimai fəaliyyətə qatılırdılar. Bununla da yeni geyim üslubları yaranır və insanların həyat tərzinə daha yaxşı cavab verirdi.

Artıq dəbdə bir standart formalaşırdı: arıq idmançı qadın bədəni - geniş çiyin, kiçik sinə, dar çanaq və uzun ayaqlara malik kişi bədən formasını xatırladan siluet dəbə gəldi. Qadın paltarları, bluz və ceketlər daha da sadələşərək düz forma almışdı. 30-cu illərdə qadın bədəninin təbii ölçülərinə daha çox uyğun gələn bir forma yenidən dəbə döndü və bununla da ilkin zərif qadın görünüşü bərpa oldu. Bu sırada Marlen Ditrix qadın dəb aləminə smokinlərini təqdim etdi. Gəlincik üzlü, balaca, şiş, parlaq dodaqlı, saçı xırda buruqlu, romantik qadınlar gözəllik simvoluna çevrildi. [2]

XX əsrin 30-cu illəri hollivud kino ulduzlarının dövru hesab edilirdi və məhz onlar bu dövrün əsas dəb qaydalarını (bədən formaları, dəbli üslublar və s.) cəmiyyətə diqtə edirdilər. Ulduzlar ipək, atlas və parça kimi təbii materiallardan tikilmiş paltarları müxtəlif xəzlərlə geyinərək əsrarəngiz gözəlliklərini daha çox vurğulayırdılar.

İkinci dünya müharibəsi illərində bütün bu dəbdəbəli və lüks geyimlər müvəqqəti olaraq geri çəkildi. Çətin günlərin başlaması geyimə daha ciddi yanaşmalar tələb edirdi. Bu illərdə Parisin bir çox dəbli xanımları ipək parçalı və lələklərlə bəzədilmiş paltarlardan məhrum oldular. Bunun əvəzinə, Chanel onlara öz şəxsi qarderobundan geyim modellərinin (köynək biçimli sadə bluzlar və dizə qədər olan düz ətəklər) surətini təqdim etdi.

Parisli xanımlar Chanel tərəfindən tövsiyə edilən zəriflik və sadəliyi əks etdirən bu geyimləri həvəslə qəbul etdilər. O dövürdə qadınlar da döyüşlərdə fəal iştirak edirdilər, buna görə də, dəbli qadın geyimləri (enli qaldırılmış çiyin və six bel hissəsi) hərbi formanı xatırladırdı. Bu cür geyimlər hündür dabanlı ayaqqabılarla tamamlanaraq 1947-ci ilə qədər dəbdə qaldı. Məhz bu dövürdə dəbə, kişilərdə olduğu kimi, qısa saç düzümləri imici tamamladı. [3]

1947-ci ildə Parisdə Christian Dior "Yeni görünüş" adlı ilk kolleksiyasını nümayiş etdirdi. İctimaiyyətə tamamilə yeni və inqilabi bir qadın imici təqdim edildi, burada yüksək büst, yuvarlaq çiyinlər və geniş çanaq hissə vurğulanırdı. Artıq müharibə bitmişdi və insanlar dinc, sakit, bir həyat arzulayırdılar. [4] Bunun ardınca dəbdə dövrə uyğun bir konsepsiya meydana gəlirdi. Onun konsepsiyanın yaradıcısı məşhur fransız dəb dizayneri Christian Dior idi. Bundan sonra geyimdə ətəklər kəskin şəkildə uzanır, altı hamar ayaqqabılar gedişi daha yüngül və rahat edirdi. Alt geyimlərində ətəklər və şəffaf kapron bluzlar meydana gəlirdi. Qadınlar yenidən dekorativ kosmetikaya maraq göstərməyə başladı gözlərə xüsusi diqqət yetirilirdi.

1946-cı ildə Louis Reard ilk dəfə çimərlik paltarı (bikini) yaratdı, ancaq ilk dövürdə satışlar heç də ürək açan deyildi. Amma tezliklə Rita Heyvard və Merlin Monronun fotoqraflar qarşısında çimərlik geyimində çıxışı cəmiyyətdə əsil partlayış yaratdı. Bütün qızlar məşhur aktrisa olmaq və əlbəttə, onlara bənzəmək arzusunda idi, buna görə də tezliklə rəflərdə olan bütün çimərlik geyimləri satıldı. 1950-1970-ci illər Emilio Pucci Kapri adasına səfər etdikdən sonra cəmiyyətə "kapri" adlı şalvarlar təklif etdi. Kapri adasında olarkən o, daim balıqçıları diqqətlə müşahidə edirdi. Hər dəfə şalvarları islanmasın deyə balıqçıların ətəklərini baldıra qədər qatladıqlarının şahidi olurdu. Gördüklərindən ilhamlanaraq Pucci yaratdığı şalvarı "kapri" adlandırır.

1954-cü ildə Vive Roje hündürlüyü 7-8 sm olan incə dikdaban ayaqqabıları kəşf etməklə dəb dünyasında real bir inqilab etdi. Bu ayaqqabılar sonradan meydana gələcək dikdaban ayaqqabıların ilki olaraq, əsrin simvoluna çevrildi. 1959-cu ildə bu dikdaban ayaqqabılar əsasında "şok" adlanan, daban hissəsi incə aypara formasında, xaricə doğru qatlanmış ayaqqabılar meydana gəldi.

50-ci illərin sonu 60-cı illərin əvvəlində qadın geyimlərində ətəklər yenidən qısalmağa başladı. 1954-cü ildə Chanel günümüzə qədər onun adını daşıyan məşhur kostyumlarını ictimaiyyətə təqdim etdi. [5]

Dior dəb evinin əsas modelyeri 21 yaşlı Yves Saint Laurent isə, 1958-ci ildə moda səhnəsində sensasiya doğuran ilk kolleksiyasını nümayiş etdirdi. Beləliklə, 20-ci illərin ən dəbli əşyaları yenilənir, çox yüngül, yumşaq və daha müasir formaya düşürdü. Ansamblın yuxarı hissəsi bədən formasına uyğun biçilir, gizli tikiş, müxtəlif parçalardan əlavələr və effektli drapirovkalarla bəzədilirdi. Bel hissəsində kəsiyi olmayan, köynək formasında biçilən düz, geniş paltarlar meydana gəlirdi. Bu don-köynəkləri kəmərlə müxtəlif formalarda-bel nahiyəsinin incəliyini vurğulayan, kəməri beldən aşağıda yerləşdirməklə və ya kəmərsiz geymək olardı. Bu dövrdə ən məşhur və çiçəklənən yüksək dəb evlərindən biri Jivansiyə məxsus idi. Bu dəb evinə xas olan ideal üslub 50-ci illərin zəriflik standartını əks etdirirdi. Dəbli rənglər arasında qırmızı, göy və çəhrayı üstünlük təşkil etdiyi halda, naxışlar arasında gül və dairələr üstünlüyə sahib idi.

Bu dövrün xanımları özlərinə diqqəti cəlb etməkdən çəkinmirdilər. Modelyerlər üçün belə cəsur xanımlardan biri məhz Odri Hepbern idi. Bu dövrdə dəbli əşyalar arasında əsas yeri aksesuarlar tuturdu. Xanım o zaman kübar və incə

geyinmiş hesab olunurdu ki, onun başında şlyapa, əlində əlcək və kiçik çanta, boynunda mirvari boyunbağı, ayağında isə ucu iti ayaqqabılar olsun.

60-cı illərin dəbi özündə daha çox həndəsi formaları, həcmli saç düzümləri və gözə ox şəklində çəkilən xətləri əks etdirirdi, sarı saçlar daha çox dəbdə idi. 60-cı illərin dəbində geyimdə qısa ətəklər qalmaqda davam edirdi və dama-dama parçaların istifadəsinə üstünlük verilirdi. Bununla yanaşı, hündür boğaza və gödək ətəyə (ətəyin kəsimləri arasında üçbucaq formasında əlavələrlə), ¾ uzunluğunda qollara, enli belə malik paltarlar dövrün dəbini əks etdirirdi. Bundan sonra paltar və ətəklər sürətli şəkildə qısalmağa başladı.

1960-cı illərdə Dior dəb evində rəhbərliyinin üçüncü ilində Yves Saint Laurentin yaratdığı kolleksiya dəb aləmində qalmaqala səbəb oldu. O öz müştərilərini və media işçilərini hazırladığı qara dəri bluzon (bel hissəsi çox qısa şalvarlar), vodalazka və radikal tələbələrin pencəklərinə bənzər qısa gödəkçələrlə təəccübləndirdi. [6]

60-cı illərdə Amerikalı hippilər nəinki gənc insanların şüurunda, həm də gənclərin geyim dəbində inqilab etdilər. O vaxtdan bəri cins parçalardan hazırlanan şalvar, köynək, gödəkçə, palto, papaq və ayaqqabılar müasir insanın qarderobunda yer tutdu.

1965-ci ildə Pier Cardin qısa (mini) sarafanlar yaratmaqla dəb aləmində daha bir inqilab etmiş oldu. Bu sarafanlar çiyin hissədə iplə bağlanan, üzəri hamar, möhkəm yun parçalardan hazırlanırdı. Pier Cardenin 1968-ci ildə yaratdığı kolleksiya (yastı daban ayaqqabılar, parlaq səthli, çantalar və aksessuarlar) kosmosu xatırladırdı.

Pier Cardin dəbə eyni zamanda çox dar şalvarlar, bədən formasına uyğun pəncəklər, boyun hissələri qatlanmayıb düz duran köynəkləri dəbə gətirdi. Dövrün kişi saç düzümləri isə “Bitlz” qrupunun bənzətməsi idi. 1968-ci ilin dəbi olan mini ətəklər orta uzunluqda (midi) ətəklərlə əvəz olundu. Yeni parçalar - neylon, kapron və krimplen meydana gəldi.

70-ci illərdən başlayaraq xəz artıq dəbdən düşdü. Qadınlar kişi qarderobunu özlərinə nümunə seçərək şalvar geyinməyə başladılar və qadın zərifliyindən məhrum oldular. Qadın geyimləri arasında xit kimi yalnız çiyinləri visual böyüdən rənglənmiş tülkü dərisindən hazırlanan qisa gödəkcələr qalmaqda idi.

Bu dövürdə daha bir modelyer Diana von Furstenberg dəbin inkişafına əvəzsiz töhfə verdi. Məhz Diana, ilk dəfə 70-ci illərdə dəb dünyasında meydana gələn xalat paltarın müəllifi oldu və artıq 40 ildən çoxdur ki, bu model öz aktuallığını qoruyub saxlıyır. [7, s. 15-18]

70-ci illərin dəbi qeyri-adi, parlaq, səs-küylü və hətta bir qədər dəlisov idi. Hamı enli ətəkli (klyoş) şalvarlar geyinirdi. Bundan əlavə, sərbəst kombinezonlar, yerə qədər olan ətəklər maraqla qarşılanırdı. Dəbdə azadlıq hökm sürürdü və üslubların qarışması yalnız maraqla qarşılanırdı. Elə buna görə də Yapon dizayneri Kenzo rəngləri, materialları və naxışları qarışdıraraq yaratdığı kolleksiyalarla inanılmaz uğur qazandı. Məhz 70-ci illərdə şortlar Amerika və Avropanı fəth etdi.

1978-1979-cu illərdə cins geyimlərini ikinci plana çəkən, xaraktercə tamamilə fərqli geyim üslubu meydana gəldi, bu retro üslub idi. Bu üsluba uzun ətəklər, klassik kostyumlar və qadın incəliklərini özündə əks etdirən paltarlar xarakterik idi. Lakin retro tərzi uzun sürmədi, dəbdə yalnız bəzəkli və formal geyimlər qaldı.

1980-ci ildə idman üslubu dəb oldu. Əvvəllər sırf idman üslubu hesab edilmiş sırıqlı gödəkçələr, paltolar, şalvarlar, kombinezon və krasovkalar dəbli geyim hesab olundu. Bu geyimlər istənilən bədən formasına gözəl yaraşırdı. [8]

80-cı illərin dəbində parlaq və müxtəlif trikotaj parçalar xüsusi yer tuturdu. Poluverlər və parlaq ipliklərdən hazırlanmış gödəkçələr hətta axşamlar da geyinilirdi, bu da dəbdə bir yenilik idi.

80-ci illərdə "hərbi üslub" və "aviator" eynəkləri məşhurlaşdı. Bu üslubun geyimləri üçün paqonlar, qoyma qapaqlı ciblər, metal elementli kəmərlər və s. aksessuarlar xarakterik idi. Bu illərdən gələn dəb sıralarında çiyin hissədən enli, bilək hissədə daralan, kimano və yarasa qollar hələ də qalmaqdadır. Böyük bədən ölçülərinə maraqdan sonra 1987-ci ildən bədən formasına uyğun biçilən və qadın incəliyini əks etdirən paltarlara üstünlük verildi.

1988-ci ildə Karl Lagerfeld leginsləri podiuma gətirdi. Leginslərə tələbatın artması o dövrlərdə aerobikaya böyük marağın nəticəsi idi. Cins gödəkçələr hər bir gəncin əvəzsiz atributu idi. Dəbdə romantik üslub unisex üslubuna əks təsir yaradırdı. Romantizm müxtəlif interpretasiyalarda dahi Versace, əfsanəvi Armani və Valentino üçün xarakterik idi. Eyni zamanda romantik üsluba yeni bir dalğa İtalyan cütlüyü Dolce Gabanna tərəfindən gətirildi. [8] 1985-ci ildə Domenico Dolce və Stefano Gabbana bir yaradıcı tandem yaratdılar və 1988-ci ildə nümayiş etdirdikləri kolleksiya onlara beynəlxalq şöhrət gətirdi. Elə bu dövrdə model və ya manikenlik peşəsi daha çox populyarlıq qazanmağa başladı. Bütün qızlar standart bədən formasına malik olmağa çalışır və ya bu peşəyə yiyələnməyə səy göstərir, ən azından məşhur modellərə bənzəsinlər. Gerçək bir təlaş hökm sürürdü hamı arıqlamaq və standart formada olmaq istəyir, bunun üçün hər cür vasitələrin istifadəsindən çəkinmirdilər.

90-cı illərdə tamamilə fərqli bir istiqamət - minimalizm inkişaf tapdı. Onu təbliğ edən dizaynerlər artıq olan hər şeyi kənara atmaq ideyasını irəli sürdülər.

Bu işi daha məharətlə görmək dəb aləminin birinci xanımları Gil Sander və Donna Karan xüsusilə uğurlu oldular. Minimalizm dəbinin ən uğurlu təchizatçılarından biri də Calvin Klein idi. C.Klein eyni zamanda unisex üslubun yaradıcısı hesab olunur. 1990-ci ildə John Galliano Parisdə öz kolleksiyasını təqdim etdi.

1993-cü ildə Alexander McQueen bamsterləri (bel hissəsi çox açıq olan şalvarlar) icad etdi və onları fəal təbliğ etməyə başladı. Bu onun ilk kolleksiyası olmaqla yanaşı, həm də diplom işi idi. 1993-ci ildə Oscar de la Renta Pierre Balmain dəb evi üçün özünün ilk kolleksiyasını yaradaraq Fransız dəb evində çalışan ilk Amerika dizayner oldu. 1997-ci ildə auditoriyanı göz yaşlarına boğan "Titanik" faciəsinin yeni versiyasının ekranlarda canlanmasıyla qadın zərifliyini

əks etdirən krujeva və şəffaf parçalar dəbə qayıtdı.

2000-2001-ci illərin kolleksiyalarında 60-ci illərin zərifliyi, 70-ci illərin sərbəstliyi və 80-ci illərin dəbdəbəsi əks olunurdu. Bahalı parçalar, füsünkar geyim biçimləri, dəbli qadın saç düzümləri və ifadəli makiyaj dəbdə idi. Artıq şərq dəbdəbəsi asanlıqla qərb avanqardı ilə uyğunlaşırdı. Kimono, cins, hərbi pencəklər, reper şalvarları, mirvari və muncuq-bütün bunlar birlikdə, həm də ayrı-ayrılıqda aktual idi.

2000-ci ildə Victoria Secret markası dünyanın ən bahalı 15 milyon dollar dəyərində olan yaqut və brilyantlarla bəzədilmiş busqalterini təqdim etdi. Beləliklə, keçən əsrin hər bir onilliyində dizaynerlər yeni tapıntılar təqdim edir və bununla dəb səhnəsində dəfələrlə inqilabi dəyişikliklərə imza atırdılar.

Araşdırmalarmızın sonunda belə nəticəyə gəlmək olar ki, dəb daim hərəkətdə olmasına baxmayaraq biz köklərəimizə dönməkdəyik. XX əsrdə olduğu kimi, növbəti yüzilliklərdə də dəb əlbəttə ki, gətirdiyi yeniliklərlə insanları sevindirəcək və onlara incə zövq və unudulmaz həzz bəxş edəcəkdir.

## Ədəbiyyat:

1. Касумова Э.Н. Роль западноевропейских дизайнеров в становлении и развитии моды XX века / 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın materialları. Bakı: 2003, s. 136-137.
2. Мода и стиль / под ред. В.А. Володина. М: Аванта +, 2002, 480 с.
3. Richardson. J. Three Centuries of Women's Dress Fashions: A Quantitiative Analysis / J.Richardson, A. Kroeber // University of California Anthropological Records. 1940. Vol. 5. – P. 111-154.
4. Балдано. И. Ц. Мода XX века: / Энциклопедия. И. Ц. Балдано. М: Алма-ПРЕСС, 2002, 400 с.
5. Козлова Т.В., Ильичева Е. В. Стиль в костюме XX века. Учебное пособие для ВУЗов. М: МГТУ им. А Н Косыгина, 2003, 160 с.
6. Ермилова Д. Ю. Истороя домов моды: учеб. пос. высш. учеб. завед. / под ред. Д. Ю. Ермилова; ред. Е.В. Слюсарь. М: Академия, 2003, 288 с.
7. Раева. Д. М. Война и мода: стилистика и образ жизни // Сб. статей и докл. Регион. конф. посвященной 60 летию Великой победы. Н. Новгород: ГХИ ННГАСУ, 2005, с. 15-18.
8. Qasımova E.N. Dəb aləmində bərqərar olmuş apaarıcı üslubların xüsusiyyətləri. Monoqrafya. Bakı: "Elm" nəşriyyatı, 2015. 168 səh.

**Эльфана Касумова, Джавадзаде Гюнай**

**Вольшебники парижской моды**

**Резюме**

Статья посвящена анализу тенденций моды в мире одежды в XX веке.Указано, что название товарной марки, которое началось с имени

Чарльза Фредерика Ворта, дало большой толчок развитию моды. Созданный дизайнерами в XX веке мир моды вызвал настоящую революцию. На модной сцене были определены особенности парижских дизайнеров Пауля Пуаре, Коко Шанель, Марлена Дитрикса, Виве Родже, Квин, Карла Лагерфельда и других. Эти нововведения дают основания называть индустрию моды эпохой возрождения XX века.

**Ключевые слова**: мода, пути развития одежда, парижские модельеры, формирование стилей.

**Elfana Gasimova, Cavadzadeh Gunay**

**Wizards of the Parisian fashion**

**Summary**

This article is devoted to the analysis of fashion trends in the clothing world in the 20th century. It was pointed out that the brand name, which began with the name of Charles Frederick Wort, gave a great impetus to fashion development. It has been established that in the twentieth century designers created a true revolution in the fashion world. Fashionable features of Parisian designers Paul Puare, Coco Chanel, Marlen Ditrix, Vive Roje, MC Queene, Karl Lagerfeld and others were identified. These innovations are the basis of the 20th century fashion industry's renaissance.

**Keywords**: fashion, clothing development paths, Parisian fashion designers, formation style.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.05.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.06. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Arif Əziz**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**